

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 217 (21.878)

16 noyabr 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Moldovanın daxili işlər naziri Aleksandr Jizdanı qəbul edib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib, Azərbaycan və Moldova hüquq mühafizə orqanları, o cümlədən Daxili İşlər nazirlikləri arasında səmərəli əməkdaşlığın həyata keçirildiyi, təcrübə mübadiləsi aparılmasının əhəmiyyəti vurğulanıb, Moldovanın daxili işlər naziri Aleksandr Jizdanın ölkəmizə səfərinin bu əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Braziliya Federativ Respublikasının xarici əlaqələr naziri Aloyzio Nunyes Ferreiranın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə Braziliya arasında iqtisadi, sərmayə qoyuluşu, biznes, turizm, təhsil, mədəni, humanitar və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## M.Ə.Seyidovun Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 32-ci maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

Mirhəşim Əhməd oğlu Seyidov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 noyabr 2017-ci il*

## Əhalinin sağlamlığı üzrə ardıcıl tədbirlər həyata keçirilir



*Səhiyyə sahəsində dövlət siyasətinin başlıca məqsədi əhalinin sağlamlığının etibarlı qorunmasından, keyfiyyətli tibbi xidmətlərlə təmin edilməsindən ibarətdir. Azərbaycanda səhiyyənin inkişafı və tərəqqisi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr edən ümummilli liderimiz səhiyyəni cəmiyyət və dövlət həyatında ən mühüm sahə kimi qiymətləndirərək demişdir:* ***"Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir".***

Ümummilli liderimizin səhiyyə sahəsində müəyyənləşdirdiyi strateji xətt ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da uğurla davam etdirilir, bu sahənin inkişafı üzrə ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***"Dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır"*** prinsipi əsas götürülərək muxtar respublikada əhalinin sağlamlığının qorunması istiqamətində tibbi profilaktikanın genişləndirilməsi, müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə ocaqlarının inşası daim diqqət mərkəzində saxlanılır.

Ötən dövr ərzində aparılan genişmiqyaslı islahatlar çərçivəsində Naxçıvan Muxtar Respublika Xəstəxanası, Diaqnostika-Müalicə Mərkəzi, Doğum Mərkəzi, Duzdağ Fizioterapiya, Kardioloji, Onkoloji, Yoluxucu Xəstəliklər, Gigiyena və Epidemiologiya mərkəzləri, Psixi və Ağciyər Xəstəlikləri dispanserləri, Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayon mərkəzi xəstəxanaları, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, Naxçıvan Uşaq Bərpa Mərkəzi, Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzi, Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi, kəndlərdə həkim ambulatoriyaları və feldşer-mama məntəqələri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Ümumilikdə, 1996-2016-cı illər ərzində 266 səhiyyə obyektinin tikilərək və ya yenidən qurularaq istifadəyə verilməsi muxtar respublikada səhiyyə sahəsində görülən işlərin əsas göstəricisidir.

Səhiyyənin inkişafında mühüm rol oynayan kadr təminatının yaxşılaşdırılması üzrə ötən dövr ərzində Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində və Naxçıvan Tibb Kollecində ixtisaslı həkim və orta tibb işçilərinin hazırlanması üçün müasir tədris şəraiti yaradılmış, maddi-texniki baza gücləndirilmişdir.

Muxtar respublikada əhali sağlamlığının və rifahının yüksəlişi, tibbi xidmətlərin keyfiyyətinin və əhatəliliyinin artırılması, öz növbəsində, 1 yaşa qədər ölən uşaqların sayı üzrə göstəricinin kəskin şəkildə aşağı salmışdır. Belə ki, hər 1000 nəfər doğulana hesabı ilə 1 yaşa qədər ölən uşaqların sayı 1995-ci ildə 20,6 nəfər olmuşdursa, 2016-cı ildə bu göstərici 1,5 nəfər təşkil etmişdir. Ötən dövr ərzində ümumi ölümün göstəricisi də azalmış və əhalinin hər min nəfərinə hesabı ilə 1995-ci ildə 6 nəfər olduğu halda, 2016-cı ildə 4,1 nəfərə düşmüşdür.

Səhiyyənin inkişafı, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatı və digər bu kimi mühüm tədbirlər əsas demoqrafik göstərici olan doğulanda gözlənilən ömür uzunluğunun artımına ciddi təkan vermişdir. Belə ki, 1995-ci ildə muxtar respublikada doğulanda gözlənilən ömür uzunluğu 69 yaş, o cümlədən kişilərdə 65,3, qadınlarda isə 72,5 yaş təşkil edirdisə, 2016-cı ilin yekun nəticələrinə görə, bu göstərici 78,6 yaş, o cümlədən kişilər üçün 76,3, qadınlar üçün isə 80,9 yaş səviyyəsində olmuşdur.

Səhiyyə sahəsinin inkişafı istiqamətində cari ilin ötən dövrü ərzində Naxçıvan şəhərinin Tumbul, Şərur rayonunun Qarahəsənli, Arpaçay və Çəmənli, Babək rayonunun Payız kəndlərində feldşer-mama məntəqələrinin tikintisi, Şərur rayonunun Əlikli kəndində feldşer-mama məntəqəsinin yenidən qurulması başa çatdırılmışdır. Bundan əlavə, Şərur rayonunun Ərəbyengicə, Ordubad rayonunun Üstüpü kəndlərində həkim ambulatoriyası binalarının tikintisi, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının yenidən qurulması hazırda davam etdirilir.

Muxtar respublikada müasir səhiyyə ocaqlarının istifadəyə verilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi və ixtisaslı tibbi kadrlarla təminatı əhali sağlamlığının bundan sonra da yüksək səviyyədə qorunmasına xidmət edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Rumıniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri: *Naxçıvan qədimliklə müasirliyin harmoniyasını əks etdirir*

***Noyabrın 14-15-də Rumıniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan İanku Naxçıvan Muxtar Respublikasında səfərdə olub. Səfər çərçivəsində qonaq muxtar respublikanın tarixi abidələri, təhsil, mədəniyyət və istehsal müəssisələri ilə tanış olub.***



Diplomat əvvəlcə müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib.

Naxçıvan Biznes Mərkəzi ilə tanışlıq zamanı səfirə məlumat verilib ki, hazırda burada muxtar respublikada istehsal olunmuş 900-dən çox məhsul nümayiş etdirilir. Eyni zamanda mərkəzdə xalçaçılıq, dekorativ-tətbiqi sənət, ağac üzərində oyma işləri də sərgilənir.



Duzdağ Fizioterapiya Mərkəzində olan qonağa məlumat verilib ki, dağın altına doğru 300 metr uzanan mərkəzdə yüksək səviyyəli xidmət şəraiti yaradılıb. Son illərdə ölkəmizin müxtəlif regionlarından, habelə dünyanın bir çox yerlərindən bronxial-astma xəstələri buraya gələrək müalicə alırlar. Müalicə olunanlar və onları müşayiət edənlər üçün mərkəzdə nümunəvi xidmətlər təşkil edilib.

Noyabrın 15-də isə rumıniyalı diplomat ilk olaraq Naxçıvan Dövlət Universitetinə gəlib. Ali təhsil ocağı ilə tanış olan səfir universitetin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin tələbələri üçün Rumıniya-Azərbaycan əlaqələrinə dair mühazirə oxuyub.

Sonra diplomat "Naxçıvan Avtomobil Zavodu", "Gəmiqaya Mineral Sular" və "Gəmiqaya Mebel" Məhdud Məsuliyyətli cəmiyyətlərinə gedib, istehsal prosesi ilə tanış olub.

Dövlət Bayrağı Meydanı və Muzeyində, Naxçıvan Dövlət Xalça Muzeyində, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Mömünə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, Heydər Əliyev Sarayı və Naxçıvan Dövlət Rəsm Qalereyasında, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində olan səfirə bu tarixi abidələr və mədəniyyət obyektləri haqqında ətraflı məlumatlar verilib.

Bununla da, Rumıniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan İankunun Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

Rumıniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Dan İanku səfər təəssüratları barədə qəzetimizə müsahibəsində deyib: "Bu mənim Naxçıvana ilk səfərimdir. Bu ikigünlük səfər çərçivəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri və digər rəsmi şəxslərlə görüşlərimiz oldu, muxtar respublikanın siyasi, iqtisadi vəziyyəti ilə tanış oldum. Gəldiyim nəticə bundan ibarətdir ki, Naxçıvanın iqtisadi, mədəni və digər sahələrdə böyük potensialı vardır. Burada keçirilən görüşlərimizdə də muxtar respublika ilə Rumıniya arasında əlaqələrdə bu potensialdan istifadə haqqında söhbətlərimiz oldu. Naxçıvan çox inkişaf etmiş və dinamik şəhərdir. Xoşbəxtlikdən mən payız ayında bura gəldim, ancaq hava çox gözəldir. Şəhər çox gözəl və təmizdir. Müasir binalarla yanaşı, tarixi tikililər də göz oxşayır. Naxçıvan, həqiqətən, qədimliklə müasirliyin harmoniyasını özündə əks etdirən şəhərdir. Təbiətin gözəlliyi, şəhərin təmizliyi, insanların qonaqpərvərliyi Naxçıvanda turizmin inkişafına imkan verir. Çünki turistlər də, adətən, bu cür yerlərə səfər etməyi sevirlər. Mən isə səfir kimi çalışacağam ki, Rumıniya ilə Naxçıvan arasında əməkdaşlıq bütün sahələr üzrə inkişaf etsin".

✍ **Səbuhi HƏSƏNOV**

Müasirləşən kəndlərimiz

# Qədim yaşayış məskəni Qahab bu gün müasirliyə qovuşan kəndlər sırasındadır



*Qədim diyarımızın zəngin ulu keçmişinin hər səhifəsində xalqımızın keçdiyi şərəfli, sirli-soraqlı salnamə yaşayır. Bu gün muxtar respublikamızın hansı səmtinə üz tutsaq, orada yaşı minilliklərə söykənən tarixlə rastlaşacağıq. Yaxın günlərdə üz tutduğumuz Babək rayonunun Qahab kəndi də müasirliyi ilə yanaşı, ulu keçmişimizi özündə yaşadan qədim yurd yeridir.*

Qahab kəndinin keçmişi ilə bağlı məlumata 1930-cu illərə aid informasiya mənbələri sırasında rus şərqşünası K.N.Smirnovun əsərində rast gələ bilərik. Mənbələrdən əldə etdiyimiz məlumata əsaslanaraq vurğulayaq ki, 1936-cı ilin payızında rus şərqşünası K.N.Smirnov 64 gün Naxçıvanda olmuş, Zəngəzur və Naxçıvanın əksər kəndlərini gəzmiş, ziyalılardan, muzey və arxivlərdən zəngin materiallar toplamış, Naxçıvanın tarixi və etnoqrafiyası ilə bağlı qiymətli əsər yazmışdır. Həmin əsərdə o, Kəngərli nəslinin nümayəndəsi Şahbaz ağanın verdiyi məlumata əsaslanaraq 1831-ci ildə Naxçıvanın bir çox kəndində, eləcə də Qahabda Kəngərli tayfa və tirələrinin yaşadıqları, hətta muxtar respublikamızda bəzi yaşayış məskənlərinin Kəngərli bəylərinə məxsus olduğunu yazıb.

Başqa bir mənbədə Qahab kəndinin tarixi adına nəzər saldıq. Qahab, gah – “düzən”, “çay yatağı”, ab – “su” sözlərindən ibarətdir. Digər mənbələrdə isə bu ad “az sulu” mənasında açıqlanır. Lakin tədqiqatçıların fikrincə, belə mənbələr kəndin tam adının açıqlanması üçün əsas deyil.

Eramızdan əvvəl V-I əsrlərə aid antik dövrün yaşayış məskəni olan Qahab “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli Fərmanına uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə respublika ərazisində daşınmaz tarix və mədəniyyət abidəsi kimi dövlət mühafizəsinə götürülüb. Kəndin coğrafi mövqeyinə nəzər saldıqda yaşayış yeri çox da hündür olmayan oval formalı təpədən ibarət olan kəndin mədəni təbəqəsi maddi-mədəniyyət nümunələri, gil qab qırıqları, daş əmək alətləri ilə zəngindir. Tapıntılara əsasən abidə eramızdan əvvəl V-I əsrlərə aid edilir. Burada aşkar olunmuş materialların bir hissəsi Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır.

Kəndin adı ilə bağlı etimologiyaya nəzər saldıqda “az sulu” mənası ilə rastlaşsaq da, kənd ağsaqqalı Novruz Əliyevin dediyinə görə, bu kəndin qədim zamanlardan bu günə kimi su ilə bağlı heç bir çətinliyi olmayıb. Onun dediyinə görə, bu kənd Kəngərli soyundan olan Kərbəlayı İsmayılın tiyulu olub. Həmin dövrdə Kərbəlayı İsmayıl kənddə 17 kəhriz qazdırıb. Hazırda burada həmin kəhrizlərin bəzilərinin mənbəyinə də rast gəlmək mümkündür. Novruz müəllim deyir ki, Qahab kəndinin 6 kilometr cənub-şərqində, Əshabi-Kəhf dağı yaxınlığındakı yer altından qaynayaraq köpüklə qalxan mineral “Təndir bulağı” turistlərin tez-tez üz tutduğu məkandır. Yerin tərkindən hər on beş dəqiqədən bir təzyiqlə çıxan mineral tərkibli su revmatik və dəri xəstəliklərinin müalicəsində əhəmiyyətlidir.

Müsahibimizin sözlərinə görə, Zəngəzur silsiləsinin ətəyində yerləşən, yağış və qrunt suları ilə qidalanan, Naxçıvançayın sol qolu olan Qahab çayı bu kəndin əsas su ehtiyatlarından biridir. Hazırda bu çayın suyundan eyniadlı su anbarının doldurulmasında istifadə edilir. Həmin anbar Qahab təbii gölünün əsasında yaradılıb ki, bu da suvarmada istifadə olunur. Yeri düşmüşkən qeyd edək ki, Qahab çayının üzərində uzunluğu 10 paqonometr olan körpü yerləşir. 1990-cı illərdə sel daşqınları zamanı körpü tamamilə yararsız hala düşüb, kəndin Naxçıvan şəhəri və rayon mərkəzi ilə əlaqəsi tamamilə kəsildiyindən körpü 1999-cu ildə əsaslı şəkildə təmir olunaraq istifadəyə verilib.

Bu kəndin sakinləri mehriban, qonaqpərvər olmaqla yanaşı, həm də sənəti, sənətkarı qiymətləndirən, adət-ənənələri yaşadandırlar. Kənddə xalçaçılıqla məşğul olan qadınlardan biri ilə söhbət zamanı bunun bir daha şahidi olduq. Həmsöhbətim Sabirə Zamanova deyir ki, bu peşəni mənə öz anam öyrədib. Elə anama da öz anası. Bu sənəti yaşatmaqla həm vaxtın səmərəli keçir, həm də adət-ənənələrimiz, dəyərlərimiz qorunub saxlanılır.

Burada olarkən kəndətrafı sahələrdə bir qələbəlik müşahidə etdik. Bir tərəfdə şum qaldırılır, başqa bir tərəfdə taxıl əkilir, suvarılır. Bostan-tərəvəz sahələrindən, meyvə bağlarından payız məhsulları yığılır. Kənd sakinləri zəhmətkeş, torpağa, əməyə bağlı insanlardır. Kəndətrafı sahələrdəki bu xoş görüntülər bizi zəhmətkeş insanların yanına çəkib gətirdi, onlarla elə bərəkət ətirli tarlalarda, zəhmətin bəhrəsi duyulan ərazilərdə həmsöhbət olduq.

Müsahibimiz Cəlal Novruzov dedi ki, kənd təsərrüfatı çox sərfəli sahədir. Kimsə bunun əksini deyirsə, o, işləməyi sevmir, zəhmət çəkmir. Əkinçiliklə, əsasən, heyvandarlıqda yemə olan ehtiyacı ödəmək üçün məşğul oluram. Arpa və yonca sırf mal-qara yemi üçün nəzərdə tutulub. Saxladığım mal-qara ailəmizin dolanışığını təmin edir. Biz süni qida yemirik, ətimiz də, yağımız da, pendirimiz də təbii məhsuldur. Bu sahə sərfəlidir, amma gərək işləyəsən. Sovet vaxtında hər ay gözləyirdik ki, payımıza, görəsən, nə düşür? Amma indi hərənin öz torpağı var.

Elə həmin ərazidə başqa bir kənd sakini, 62 yaşlı Səməndər Novruzovla həmsöhbət oluruq. Otlu-sulu sahəyə düzdüyü arı ailələrinə qulluq göstərir. Salamlaşıb, hal-əhval tuturuq. O deyir ki, bu peşəni nəsillikcə davam etdiririk. Atam, babam arıçılıqla məşğul olublar. Zəngin təbiətimiz var. Arıçılıq üçün sərfəlidir. Bu sahə ilə məşğul olanlara dövlət qayğısı da var. Arı xəstəliklərinin qarşısını almaq üçün vaxtlı-vaxtında dərmanlarla təchiz olunuruq. Baytar həkimlər də mütəmadi olaraq gəlib arı və heyvandarlıq təsərrüfatlarına baxır, profilaktik tədbirlər aparırlar. Bax gördüyünüz tərəvəz sahələrini ailə üzvlərimlə birlikdə becərirəm. Övladlarımı da torpağa, zəhmətə bağlı ruhda tərbiyə etmişəm, məhsullarımızın isə dadına, tamına söz ola bilməz. Təsərrüfat suyu da boldur. Bu şəraitdə kim pis dolanırsa, günah onun özündədir. Torpağı iş yeri hesab edirəm. Məni dolandırır, güzəranımı da yaxşılaşdırır. Kifayət qədər torpaq sahəsi var, təsərrüfat suyu var, əkinçilikdə işlədiləcək texnikalarımız var, istehsal etdiyimiz məhsulun da ki, alıcısı öz yerində. Gəlirimiz artdıqca, işə həvəsimiz də çoxalır.

Digər müsahibimiz Rizvan Allahyarov isə deyir ki, həm əkinçilik, həm də heyvandarlıqla məşğulam. Hər il torpağımın bir hissəsində taxıl, bir hissəsində tərəvəz əkirəm. Yaxşı da məhsul əldə edirəm. Məhsulu satmıram, buğdanı üyüdüb una çevirir, özümüz istifadə edirik. O bildirir ki, kəndlinin dolanışığı bu torpaqdan çıxır. Bərəkət o zaman olur ki, torpağa qayğı göstərəsən, işləyəsən, əmək sərf edəsən.

Kənddə əkinçiliyin müxtəlif sahələrinin, xüsusən də taxılçılığın inkişafı əhalinin taxıla, çörəyə və digər məhsullara olan tələbatının yerli imkanlar hesabına ödənilməsinə zəmin yaradır. Elə bunun nəticəsidir ki, burada 6 çörək istehsalı müəssisəsi fəaliyyət göstərir.

İndi isə Qahab kəndinin müasir simasını əks etdirən mənzərəsi haqqında qənaətlərimizi sizinlə bölüşmək istərdik.

Kəndə daxil olarkən ilk olaraq uzaqdan diqqəti yeni tikililər çəkir. Kənd yolunun sağında böyük bir ərazidə inşa olunmuş məktəb binası, kənd mərkəzi, həkim ambulatoriyası, kənd yolunun solunda xidmət mərkəzi... Kəndə müasir qəsəbə görkəmi verən həmin obyektlər muxtar respublikada bərqərar olmuş sabitliyin, nəticə etibarilə, inkişaf və tərəqqinin göstəricisidir. Bu fikirləri kənddə söhbət etdiyimiz sakinlər də təsdiqlədilər. Müsahibimiz Siyavuş Mehdiyev deyir ki, Qahab artıq iki ildir ki, bu cür abadlığa, gözəlliyə qovuşub. Son illər kəndimizdə böyük quruculuq işləri həyata keçirilib. Yarımca-Qahab-Nəcəfəlidizə-Naxışnərgiz avtomobil yolu yenidən qurulub, müasir məktəb binası, səhiyyə ocağı, kənd və xidmət mərkəzləri istifadəyə verilib. Kənd sakinlərinə göstərilən bu diqqət və qayğı bizi sevindirir, kənddə yaşamağa, canla-başla çalışmağa, qurub-yaratmağa həvəsləndirir.

Təhsil ocağına da baş çəkdik. Məktəbin direktoru Əlövsət Rzayevlə həmsöhbət olduq. O bildirdi ki, bu məktəbdə torpaqlarımız uğrunda şəhidlik zirvəsinə yüksəlmiş 4 qahablı təhsil alıb. Məktəb onlardan birinin – şəhid Babək Əliyevin adını daşıyır. 594 şagird yerlik olan məktəbdə 468 şagird təhsil alır, onlardan 39-u məktəbəhazırlıq qrupunda birinci sinfə hazırlanır. Ötən dərs ilində məktəbin 5 məzunu yüksək balla ali məktəb tələbəsi adına layiq görülüb. 3 nəfər isə müxtəlif ixtisaslar üzrə kolleclərə qəbul olunub.

Əlövsət müəllim deyir ki, məktəbin pedaqoji kollektivi yeni dərs ilinin ilk günlərindən təhsil ocağında işin səmərəli qurulmasına çalışır, dövlətçiliyimizə, müstəqilliyimizə sadiq olan vətənpərvər gənclər yetişdirmək üçün müasir təlim üsullarına üstünlük verir, məktəbdənkənar və sinifdənxaric məşğələlərin səmərəli təşkilinə çalışır. Məktəbdə tərtib olunmuş iş və tədbirlər planlarına uyğun olaraq müxtəlif tarixi və əlamətdar günlər, bayramlar münasibətilə tədbirlər təşkil olunur.

*Bu gün nəinki Qahabda, muxtar respublikamızın hər bir bölgəsində yüksək inkişaf, müasirləşmə göz önündədir. Rayonlara, qəsəbələrə şəhər simasının gətirilməsi, kəndlərin yeni görkəm alması sakinlərin mənəvi-psixoloji ovqatını, firavan gələcəyə inamını artırır. Bu gün hər kəs yaradılan şəraitdən razılığın bildirir, dövlətimizin onlar üçün təqdim etdiyi imkanların müqabilində daha səylə çalışacaqlarını dilə gətirirlər. Dövlət-xalq birliyinin belə nümunəsini indi kənd adamlarının timsalında görməksə, bizi qəlbən çox sevindirir.*

Gülcamal TAHİROVA

---

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun və Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Kəngərli rayonunun Xok kəndində “Torpaq mülkiyyətçiləri tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqlarının mahiyyəti və bu sahədə tətbiq olunan elektron xidmətlər” mövzusunda maarifləndirici tədbir keçirilib.*

# Torpaq mülkiyyətçilərinin iştirakı ilə maarifləndirici tədbir keçirilib

Tədbiri Kəngərli Rayon İcra Hakimiyyətinin Hüquq şöbəsinin məsləhətçisi Ağa Seyidov açaraq sosial sığortanın tətbiqinin əhəmiyyətindən danışıb.

Sonra Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Tural Cəfərov çıxış edərək torpaq üzərində hüquqi və fiziki şəxslərin xüsusi mülkiyyət hüququ, dövlət və bələdiyyə torpaqlarının özəlləşdirilməsi, alqı-satqısı, vərəsəliyə keçməsi, bağışlanması, dəyişdirilməsi və torpaqla bağlı digər əqdlərin bağlanma şərtlərini tədbir iştirakçılarının nəzərinə çatdırıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Gəlirlər şöbəsinin müdiri Əli Həsənov mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən torpaq mülkiyyətçiləri tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqlarının mahiyyəti və bu sahədə tətbiq olunan elektron xidmətlər haqqında bildirib ki, torpaq mülkiyyətçiləri şəxsən özləri sosial sığorta haqlarının düzgün hesablanması və ödənilməsində maraqlı olmalıdırlar. Məruzəçi bu qəbildən olan torpaq mülkiyyətçilərinin əmək qabiliyyətli ailə üzvlərinin hər biri üçün torpaqların ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqının müxtəlif keyfiyyət qrupları üzrə ödənilməli olan məcburi dövlət sosial sığorta haqları haqqında ətraflı məlumat verib.

Tədbirdə fondun İnformasiya texnologiyaları sektorunun müdiri Toğrul Hüseynov, fondun Fərdi uçotun təşkili şöbəsinin baş məsləhətçisi Elçin Səfərov, fondun Kəngərli rayon şöbəsinin müdiri Aqşin Əliyev və Pensiyaların təyinatı sektorunun müdiri Fizuli Əsgərov çıxış ediblər.

Tədbirin sonunda yeni əmək fəaliyyətinə başlayan sığortaolunanlara sosial sığorta şəhadətnamələri təqdim olunub, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq sahəsi olan torpaq mülkiyyətçilərini maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

---

# Növbəti təsərrüfat ili başa çatmaqdadır

***2017-ci ili Babək rayon sakinləri üçün uğurlu illərdən biri saymaq olar. İlin ötən dövründə məhsuldar torpaq sahələrində zəhmət çəkərək məhsul bolluğu yaradan insanların sevincini başa düşmək çətin deyil.***

Babək Rayon Statistika İdarəsindən aldığımız məlumata görə, bölgənin torpaq mülkiyyətçiləri əvvəlki ilin payızında və cari ilin yazında 10420 hektar sahədə taxıl əkiblər. Bunun 6964 hektarı buğda, 3456 hektarı isə arpa olub. Əkilən sahədən 22,124 ton buğda, 10,696 ton arpa tədarük edilib. Hazırda torpaq mülkiyyətçiləri yenə sahələrdədir. Onlar şum qaldırılması və payızlıq taxıl əkinini vaxtında başa çatdırmaq üçün əlverişli hava şəraitindən səmərəli istifadə edir, gələn ilin bol məhsulunun əsasını qoymağa çalışırlar. Taxılçılar bu sahədə də göstərilən dövlət qayğısından razılıq edirlər. Çünki kifayət qədər texnika sahələrə çıxarılıb. Hazırda payızlıq əkin üçün şumlanmış sahələrə toxum səpilir, zəmilər suvarılır.

Dənli-paxlalı bitkilərin əkinində də yüksək nəticəyə nail olunub. Belə ki, 208 hektar sahədən 687 ton məhsul toplanılıb. Rayonun məhsuldar torpaq sahələri burada yüksəkkeyfiyyətli kartof istehsalına imkan verir. Yaradılan şərait, dövlət tərəfindən verilən kredit və əldə edilmiş məhsuldar toxum sortları torpaq mülkiyyətçilərinin ilbəil qazandıqları uğurların artmasında başlıca səbəblərdir. Babəklilər kartof əkilmiş 476 hektar sahədən bol məhsul əldə ediblər. Tərəvəz əkini sahələrində də vəziyyət ürəkaçandır. Belə ki, 2093 hektar tərəvəz əkini sahəsi torpaq mülkiyyətçilərinə xeyli gəlir gətirib. Rayonda bu il barverən meyvə və üzüm bağlarında məhsuldarlıq ötən illə müqayisədə yüksək olub. Babəklilər bostan məhsullarının tədarükündə də zəngin təcrübəyə malikdirlər. Belə ki, 1511 hektar sahədə bostan məhsulları yetişdirən torpaq mülkiyyətçilərinin də zəhməti hədər getməyib.

**Xəbərlər şöbəsi**

*Dünyanın görməli yerləri ilə tanışlıq məqsədilə səyahətə çıxıb dünyagörüşünü artırmaq müasir turistlərin ən geniş tələbatlarındandır. Şübhəsiz, Yer üzünün təbii gözəllikləri insanın mənəvi dünyasını zənginləşdirən ən əsas sərvətlərdir. Belə sərvətləri isə Uca Yaradan doğma torpağımızdan da əsirgəməyib. Naxçıvanın sahib olduğu unikal landşaft müxtəlifliyi buraya səyahət edən hər bir turistdə unudulmaz təəssürat yaradır.*



*Turizm*

# Naxçıvanda landşaft turizmi üçün geniş imkanlar var



Uzaq ölkələrdən Naxçıvana səyahət edənlər üçün Nuh Peyğəmbərin ayaq basdığı bu qədim Azərbaycan torpağı ilə tanışlıq hələ hava gəmisi yerə enmədən başlayır. Haçadağ istiqamətindən başlayaraq yerə enmək üçün gedərək yüksəkliyi azaldan təyyarənin pəncərələrindən Ağrı dağının əlçatmaz zirvəsi fonunda hörük kimi qıvrılaraq Naxçıvanla qucaqlaşan xan Arazın, qarşıda məğrur döyüşçülərin sırası kimi nizami Zəngəzur dağlarının və bu ulu yurdun simvolu Haçadağın panoramı bir andaca insanı özünə bağlayır. Naxçıvanla bir neçə dəqiqə çəkən belə quşbaxışı tanışlıqdan sonra Naxçıvan Beynəlxalq Hava Limanında qarşılanan turistləri heç bir yerdə görə bilməyəcəkləri gözəl mənzərələr gözləyir.

Tanışlıq baxımından dünyanın hər bir guşəsinin öz cazibəsi var. Turizmin gücü də elə bundadır. Naxçıvan dünyanın ucsuz-bucaqsız yerləri ilə müqayisədə çox da geniş bir əraziyə sahib olmasa da, buradakı təkrarolunmazlıqlar və onların kompaktlığı baxımından, bəlkə də, planetin ən gözəl yerlərindən biridir. Bunu Naxçıvana səyahət edən turistlərin maraq dolu baxışları və bitib-tükənməyən sualları deməyə əsas verir. Doğrudan da, əgər "Təbriz" mehmanxanasının 13-cü mərtəbəsindəki pəncərə önündən tarixlə müasirliyin bir məkanda qovuşduğu şəhəri və yalçın qayaların yamyaşıl yamaclarla növbələşdiyi dağları doyunca seyr etmək istəyən varsa, bu, turistlərin çoxdan bəri görmək istədiyi məkan – Naxçıvana gəlmədir. Odur ki, bəzən hansısa səbəbdən Naxçıvanda tur mövzusu tapa bilməyən təsadüfi turizmçilər hələ də varsa, Sədərəkdən Ordubada, Batabatdan Haçadağadək geniş ərazidəki qeyri-adi gözəllikləri onlara bir daha xatırladırıq.

Naxçıvan möcüzələr diyarıdır. Bu təkcə qədim diyarda yaşayan insanların yaşayış tərzi, mübarizliyi və eyni zamanda qonaqpərvərliyi ilə ölçülmür. Burada bir rəssama və bəstəkara, yaxud şair və yazıçıya mövzular verən təbiət guşələri, landşaft müxtəlifliyi istənilən qədərdir. İlk olaraq Naxçıvana gələn qonaqlar Ordubadı görmək istəsələr, bu həm də qədim mədəniyyət və mətbəx nümunələri ilə zəngin bölgənin ərazisi ilə də tanışlıq baxımından əla fürsətdir. Hər dəfə səhər erkəndən Naxçıvandan Ordubada qədər səyahətə çıxan turistlər əvvəlcə Zəngəzur dağlarından, sonra isə Haçadağdan möhtəşəm gündoğumu mənzərəsinin heyranı olurlar. Səyahət avtomobili yolboyu irəlilədikcə, şübhəsiz, ən görkəmli mənzərə Haçadağa yaxınlaşdıqca açılır. Əgər turistlərimiz üçün Əlincə marşrutu da nəzərdə tutulubsa, onda daha cazibədar landşaft gözəllikləri ilə orada – Əlincənin zirvəsində tanış ola biləcəyini elan etmək mümkündür. Hələlik isə Darıdağ massivinə yaxınlaşdıqca uzaqlarda bir-biri ilə növbələşən dağların və dağətəyi təpələrin sanki bir ansambl kimi ahəngdar şəkildə sıralanmasını seyr edib, turistlərlə çox sayda foto və video təsvirləri çəkmək olar.

Burada bir məqam diqqətləri xüsusilə cəlb edir. Belə ki, Yaycı kəndindən başlayaraq Ordubad yolu boyunca uzanan qeyri-adi dağ mənzərələri muxtar respublikamıza səyahət edən bir sıra tanınmış turistlərin də diqqətindən yayınmayıb. Ətrafdakı şişqayalı dağların səssiz simfoniyasını sanki hansısa dahi bəstəkarın ən yaxşı musiqi əsərinə bənzədənlər də olub. Konkret olaraq, bu fikirlər bir neçə il əvvəl muxtar respublikamıza səyahət etmiş dünya şöhrətli rəssamımız Tahir Salahovun dilindən də deyilmişdi.

Ordubada daxil olarkən turistlərin marağını cəlb edən ilk gözəllik Bəlkə dağının və Bərəkə qayasının panoramıdır. Belə sərt qayalıqlara və yaxud panoramlı mənzərələrə planetin digər yerlərində rast gəlmək mümkündür. Ancaq min illərlə yaşı ölçülən Ordubad kimi qədim bir şəhərin cəmi yarım kilometrliyində yüksələn belə landşaft mənzərələrinə isə çətin ki, başqa yerlərdə rast gəlinə. Həm də Ordubad şəhərinin yerləşdiyi ərazinin quruluşu elədir ki, burada istənilən nöqtədən hansısa bir mənzərəni seyr etmək mümkündür. Tarixi binalar, muzeylər, məşhur insanların adı ilə bağlı yerlər, nəhəng Ordubad çinarları, qədim meydanlar bu diyarın görməli yerləridir. Bütün bunlar şəhərlə tanışlıq üçün geniş mövzu verən turizm ehtiyatlarımızdır. Belə mənzərələrin seyrinə doymayan turistlərimizi həm də Ordubad limonu ilə cəviz mürəbbəsinin olduğu çay süfrəsinə dəvət etmək mümkündür.

Naxçıvan-Batabat turizm marşrutu da landşaft gözəllikləri baxımından turistlərə unudulmaz təəssüratlar vəd edir. Şahbuz dağlarının uzaqdan görünən cazibəsi hələ bu istiqamətə yenicə yola çıxmış turistlər üçün ilk maraq obyektidir. Heydər Əliyev Su Anbarı bəndinə çatdığımızda bir anda az qala bütün Şahbuz rayonunun panoramı ilə Dərələyəz və Zəngəzur silsilələrinin cənub yamaclarındakı çox sayda təbiət abidələri, dağ çayları,



təbii və süni göllər, sıldırımlı qaya aşırımları və nəhəng dərələrin seyrinə saatlarla dalmaq mümkündür. Qeyd etmək lazımdır ki, bu ərazilər həm də yürüş və ekstremal idman növləri ilə məşğul olanlar üçün də fəal istirahətin ən yaxşı yeridir. Təcrübə göstərir ki, belə ərazilərə, xüsusən Avropa, Rusiya və Yaxın Şərq ölkələrindən gələn turistlər çox maraq göstərirlər. Batabat yaylağının, buradakı meşə massivinin təbii quruluşu isə ilin istənilən fəslində səyahət edən turistlər üçün zəngin rekreasiya vəd edir.

Naxçıvana səyahət etmiş turistləri landşaft gözəllikləri ilə heyrətləndirən ən gözəl mənzərələrdən biri, heç şübhəsiz, Naxçıvan-Əlincə turizm marşrutu üzrə səyahət edərkən Əlincəçay vadisinə yetişdikdə gözlərimiz önündə açılan nəhəng görüntüdür. Bu astronomik mənzərəni görən istər yerli, istərsə də xarici turistlər olsun, kiminsə heç olmasa, bir neçə dəqiqə dayanıb seyrə dalmadığına və yaxud bir neçə fotoşəkil çəkdirmədən buradan uzaqlaşdığına inanmaq mümkün deyil. Xüsusən ilin yaz, payız fəsillərində, havanın şəffaf olduğu vaxtlarda buradan keçən təbii gözəllik həvəskarı turistlər üçün unikal mənzərələr vardır. Daha irəlidə, Əlincəqalanın zirvəsindən və Haçadağın ətəyindən Naxçıvanın təbii və insan əli gözəllikləri ilə tanış olan turistlər buraya səyahəti seçməkdə yanılmadıqlarına bir daha inanıb, elə bu zirvələrdəcə çəkdikləri fotoları 4G sürəti ilə öz dostları ilə paylaşırlar.

Gözəl Naxçıvanın heyrətamiz landşaft mənzərələri çoxdur. Onların qarşısında mat qalan turistlərlə də çox rastlaşmışıq. Amma əgər bir axşamçağı Naxçıvana gəlmiş turistlərimizə Gəmiqayanın zirvəsindən Ağrı dağına doğru günbatımı mənzərəsini də seyr etmək kimi bir tur proqramı təklif edə bilsək, bu, bəlkə də, onların indiyə qədər görə bildiyi ən gözəl landşaft mənzərəsi olacaq. Bu imkan isə yalnız bizdə, Naxçıvandadır.

*Turizmi yeni dövrün yeddi möcüzəsindən biri adlandırırlar. Səyahətlərə yollanıb, dünyanın sonsuz gözəlliklərindən zövq almaq müqəddəs kitabımız "Qurani-Kərim"də də buyurulub. Çox sayda belə gözəlliklərlə tanış olmaq üçün Naxçıvana gəlmiş hər bir turistə göstərdiyimiz yüksək peşəkar xidmətlər isə ölkəmizin tanıdılması və iqtisadiyyatımızın inkişafı yolunda önəmli bir addım hesab edilir.*

**Əli CABBAROV**

---

*AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutu "Nəqşicahan Holdinq" Şirkətlər Qrupu Culfa rayon "Karbon Qazı Zavodu" MMC ilə birgə keçirilən konfransı Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov açıb.*

# "Karbon qazı Naxçıvan Muxtar Respublikasının təbii sərvətidir" mövzusunda elmi konfrans keçirilib

Bildirib ki, Naxçıvan Muxtar Respublikasında 250-dən artıq mineral su yatağı mövcuddur. Alim ionların sirli birləşməsindən əmələ gələn və onlarla dərman preparatlarını əvəz edən şəfalı mineral sulardan içməli su təchizatında və təsərrüfatda, sənayedə və müalicəvi məqsədlər üçün geniş istifadə olunduğunu bildirib. Qeyd edib ki, "mineral suların təbii muzeyi" adlandırılan Naxçıvanın mineral su bulaqları içərisində Darıdağ termal suyu, tərkibindəki karbon qazı, bor, dəmir, arsenin miqdarına və debitinə görə seçilir.

Konfransda institutun Hidrogeologiya və mineral sular laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru Fizzə Məmmədova "Darıdağ arsenli mineral suyu haqqında", Mineral xammalın kimyası və texnologiyası laboratoriyasının böyük elmi işçisi, kimya elmləri üzrə fəlsəfə doktoru Əhməd Qarayev "Karbon qazının sənaye üsulu ilə alınması metodları" və kimya elmləri doktoru Bayram Rzayev "Karbon qazının tətbiq sahələri" mövzusunda məruzələrlə çıxış ediblər.

Məlumat verilib ki, karbon qazının hər üç aqreqat halından – bərk halda, quru buz şəklində, qaz və maye halından təsərrüfatın müxtəlif sahələrində geniş istifadə edilir. Bura qida məhsullarının və tibdə bir sıra dərman preparatlarının saxlanması və daşınması, maşınmexanizmlərin təmizlənməsi, süfrə suları və müalicəvi suların qazlaşdırılması, odsöndürmə işləri, kimyəvi xammal istehsalı və digərləri daxildir. Qeyd olunub ki, vanna qəbulu şəklində Darıdağ suyu müxtəlif ürək-damar, oynaq, əsəb sistemi, dəri və bir çox xəstəliklərin müalicəsi zamanı istifadə olunur. Bu su Fransadakı Lya-Burbul, Polşadakı Kudovi, Saxalindəki Sineqorsk sularının analoqudur. Lakin tərkibindəki mineral duzların miqdarına görə Darıdağ suyu öz analoqlarından üstündür.

Tədbirin sonunda "Karbon Qazı Zavodu" MMC-nin direktoru Elman Seyidov alim və mütəxəssisləri zavodun iş prosesi ilə yaxından tanış edib. Qeyd edib ki, 1980-ci ildə Darıdağ termal su quyusundan 2650 metr boru xətti ilə gətirilən spontan karbon qazı əsasında maye karbon qazı istehsal edən sex inşa edilib. 2008-ci ilin dekabr ayından isə "Karbon Qazı Zavodu" Açıq Səhmdar Cəmiyyəti kimi fəaliyyət göstərir.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

---

# Milli Dirçəliş Günü ilə bağlı tədbir

Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə Naxçıvan Muxtar Respublikası Estetik Tərbiyə Mərkəzi tərəfindən Milli Dirçəliş Günü ilə bağlı tədbir təşkil edilib. Tədbir başlanmazdan əvvəl mərkəzin dərnək üzvlərinin ifasında Dövlət Himni səsləndirilib. Aparıcı, mərkəzin dərnək rəhbəri Təranə Mirzəyeva tədbirin əhəmiyyətindən bəhs edib.

Videoslaydların da nümayiş olunduğu tədbirdə Estetik Tərbiyə Mərkəzinin direktoru Toğrul Həsənov, Heydər Əliyev adına tam orta məktəbin direktor müavini Arzu Həziyeva, mərkəzin metodisti Rahilə Əliyeva çıxış ediblər.



Bildirilib ki, noyabr ayının 17-si hər il ölkəmizdə Milli Dirçəliş Günü kimi qeyd olunur. Xalqın tarixi yaddaşının özünə qayıtması, milli dirçəlişə nail olunması böyük bir tarixi prosesin nəticəsidir.

Vurğulanıb ki, milli dövlətçiliyimizin dirçəliş prosesinin hüquqi əsaslarının yaradılmasına məhz 17 noyabr 1990-cı ildə ulu öndərimizin rəhbərliyi ilə Naxçıvandan başlanıb. Əslində isə Azərbaycan xalqının milli dirçəlişinin əsası ötən əsrin 70-80-ci illərində qoyulub. O dövrdə ulu öndər Heydər Əliyevin xalqın milli şüurunun oyanışı istiqamətində həyata keçirdiyi tədbirlər ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan xalqının öz milli suverenliyini təmin etmək üçün mübarizəyə başlamasını şərtləndirib.

Sonra mərkəzin dərnək üzvlərinin ifasında şeirlər bədii qiraət olunub, mahnı və rəqslər ifa edilib.

**Nail ƏSGƏROV**

---

# *"Çimnaz xanım yuxudadır"* komediyası tamaşaçılara təqdim edilib



*Naxçıvan Şəhər "Gənclik" Xalq Teatrı Xalq şairi Süleyman Rüstəmin "Çimnaz xanım yuxudadır" tamaşasını Kəngərli Rayon Mədəniyyət Evində nümayiş etdirib.*

Tamaşada hadisələr Qafarın (aktyor Akif Əsədov) evində cərəyan edir. Çimnaz xanımı (aktrisa Maral Rzayeva) ehtiyac üzündən 16 yaşında ikən səvmədiyi Qafara ərə veriblər. Çimnaz gözəl, əxlaqlı xanımdır. Qafar isə xoşagəlməz davranışı ilə onu bezdirir və yaşına uyğun olmayan hərəkətlər edir. Çimnaz xanım qulluqçusu Nabatı (aktrisa Nurdinar Kərimova) sevdiyi Əliyə (aktyor Sultan Səfərov) ərə vermək istəyir.

Çimnaz xanımın teatr həvəskarı kimi evində qurduğu oyun əsərin əsas mövzusudur. O, qulluqçusu Nabatı başa salır ki, əri Qafar evə gələndə ona desin ki, xanımın başı ağrıdığı üçün yatıb, onu narahat etməsin. Tamaşadakı gülməli hadisələr də bundan sonra başlayır.

Səhnə əsərində insanların dünyagörüşündə meydana gələn dəyişiklik və yeniliyin ilk nişanələri əks etdirilir ki, bu da yeni ictimai-siyasi quruluşdan irəli gələn əsas tendensiyaların ilk ünsürlərindəndir.

Tamaşanın quruluşçu rejissoru və rəssamı Akif Əsədov, musiqi tərtibatçısı Əli Məmmədovdur.

Tamaşa rayon sakinləri tərəfindən maraqla qarşılanıb.

**Əli RZAYEV**



# Qızılı payızda yaşıl şəhər, hüsnünü naxışlar zəhmətkeş əllər

*Bu il də ululardan ulu diyarımız üçün ötən ildən uğurlu, sayalı gəldi. Naxçıvanımızın hər qarışına yeni naxışlar vuruldu, yeni rənglər qədim məmləkətimizin mənzərəsinə al-əlvanlıq, şuxluq, gözəllik qatdı. Yeni-yeni binalar, yollar, körpülər istifadəyə verildi. Susuz çöllərə su çəkildi, bağlar-bağçalar salındı, ağacsız torpaqlara yeni fidanlar əkildi. Həmin fidanlar insan əlinin nəvazişi ilə torpaqda özlərinə daha möhkəm yer etdilər, çiçəkləndilər, pərvazlanıb boy atdılar. Şoran torpaqlara möhkəm, sarsılmaz iradəsinin gücünü göstərən insanoğlu hektarlarla belə torpağı körpə ağaclara yurd-yuva etdi. Naxçıvan daha yaşıl diyara çevrildi.*

Artıq Naxçıvan şəhəri yağışlı-çiskinli qızılı payızını yaşayır. Əsən küləklər, gecə ayazı ağacları gələn qışa əməlli-başlı hazırlayıb. Təkəm-seyrək ağaclar bu fəslin şıltaqlığına dözə bilib, bir az "əyin-başında" yarpaq saxlayıb. İndi şəhərə gözəllik, yaşıl rəng vermək növbəsi həmişəyaşılların, küknarların, şamlarındır. Doğma diyarımızın bütün guşələrində olduğu kimi, Naxçıvan şəhərində də belə ağaclar minlərlədir. Şəhərimiz yenə yaz fəslindəki kimi gözəl, yaraşıqlı, cilvəlidir.

Səhərdir. Xan Arazdan qalxan sis, duman şəhəri qalın yorğan kimi örtüb. Sanki Tanrının min illərdir, qoruyub saxladığı bu şəhəri yad gözlərdən gizlədir, mühafizə edir. Duman çəkildikcə gözlər önündə şəhərin möhtəşəm mənzərəsi canlanır. Yaşamaq, yaratmaq həvəsi ilə yollara çıxan insanlar təmiz, səliqəli səkilərlə işə tələsirlər. Yaşlı bir insan da onların arasındadır. Ətrafındakı ağacların rəngində yaşıl paltar geyən ağsaçlı-saqqallı insan ciddiyyət və qətiyyətlə addımlayır. Biləkləri ağac gövdəsitək möhkəm, əlləri qabarlı, alnı torpaq kimi qırışlarla örtülü, gözlərindən şəfqət, mehribanlıq yağan bu insanın işi bir çoxlarından daha çətin, daha məsuliyyətlidir. Yəqin təxmin etmisiniz. Hər gün şəhərin müxtəlif yerlərində qarşımıza çıxan bu insan əvəzsiz təbiət nümunələrinin, güllərin, çiçəklərin, ağacların qayğıkeşi olan Naxçıvan Şəhər Yaşıllaşdırma İdarəsinin işçisi, bağban Afiyəddin Mirzəyevdir.

Mənə: "Payızda yerə tökülən xəzəllərin, yazda açılan çiçəklərin, cücərən tumurcuqların qoxusunu sonuncu dəfə nə zaman ciyərlərinizə çəkmisiniz, nə zaman əyilib yol kənarında bir gülü iyləmisiniz? Halbuki mən yerə düşmüş bir xəzəlin ətrini dünyanın ən bahalı ətrinə dəyişmərəm", – deyən də odur. Haqlıdır. Mən də daxil olmaqla, bir çoxumuz təbiətin gözəlliklərinə qarşı etinasızıq, soyuğuq. Nə edirik, nə düşünürük, bəlli deyil. Nə rəngləri görürük, nə çalarları, nə də ana təbiətin çağırışını, səsini eşidirik. Bircə təsəlliverici məqam var: o da bundan ibarətdir ki, həyat davam edir. Güllü-çiçəkli, həmişəyaşıl şəhərimizə yaxşı-yaxşı baxmağa da vaxtımız var, sınan bir budağı sarıyıb həyata qaytarmağa da. İnanın ki, həyatda yalnız bircə dəqiqəniz qalmışsa, demək, gec deyil. Yaxşı əməl sahibi, bizi yaşadan təbiətə həssas olmaq üçün könül gözü ilə yalnız bircə dəfə qanrılıb ətrafa baxmağımız yetər.

Ötən günlərdə qonşu ölkənin televiziya kanallarından birində yaşıl şəhərlərlə bağlı bir verilişə baxırdım. Aparıcı yana-yaxıla qeyd edirdi ki, bu yay çox sərt keçdi, suyun çatışmazlığı ucbatından şəhərin bağlarında, xiyabanlarında ağaclar yanıb "kül oldu". Verilişlə telefon əlaqəsi yaradıb bunun günahını müxtəlif qurumlarda görənlər də oldu, əlaqəsiz fikirlər söyləyənlər də. Ancaq fakt o idi ki, çəkilən zəhmət diqqətsizlik ucbatından hədər getmişdi, nədənsə, bu problemlərin mövcudluğu yayda yox, payızda yada düşmüşdü.

Bu verilişə baxdıqca istər-istəməz söhbətə mövzu olan məkanla Naxçıvan şəhərini müqayisə etdim. Gözlərim önünə isti yay günlərində ağacların qeydinə qalan insanlar, onları qurumağa qoymayan bağbanlar, gecə-gündüz bağlara-bağçalara su daşıyan avtomobillər gəldi. Haqqında söhbət gedən şəhərin iqlim şəraiti, demək olar ki, Naxçıvan şəhəri ilə eyni idi. Ona görə də gözlərim önündə yay aylarında Naxçıvan şəhərində görülən işlər canlandıqca aparıcının və verilişlə telefon əlaqəsi yaradan insanların cidd-cəhdlə cavab axtardıqları sualın cavabını mən tapmışdım. Cavab isə sadə idi. Suyun qıtlığı, yay aylarında hərarətin yüksək olması bəhanədir. Sadəcə, o şəhərin əlaqədar qurumları bu işə dırnaqarası yanaşmış, ağacları təbiətin şıltaqlığının ixtiyarına vermişdilər. Nəticə isə göz qabağında idi.

Bəli, bu yay çox isti keçdi. Ancaq bu hal Naxçıvandakı əlaqədar qurumlar üçün bəhanəyə çevrilmədi. Əksinə, şəhərimizin yaşıllığı, abadlığı və təmizliyi üçün cavadeh olan hər bir təşkilat var-qüvvəsini səfərbər etdi, şəhərimizi, necə deyərlər, təbiətin ümidinə buraxmadı. Təbii ki, bu işə əlavə xərclər də çəkildi. Bunun da nəticəsində yaşıllıqların sayı artdı, təbiət əraziləri, parkların, xiyabanların güllük-gülüstanlığı daha da zənginləşdi. Təkcə Naxçıvan şəhərində deyil, ölkəmizin dilbər guşəsi olan qədim diyarımızın bütün bölgələrində yaşıllaşdırma işləri geniş vüsət aldı. Havaların isti keçdiyi günlərdə Naxçıvan şəhərində və bölgələrdə meyvə bağlarına və yaşıllıq zolaqlarına aqrotexniki qaydada qulluq göstərildi, ağaclar vaxtlı-vaxtında suvarıldı. Bu işdə təkcə əlaqədar qurumların əməkdaşları deyil, muxtar respublikada yaranan ənənəyə uyğun olaraq ictimaiyyətin nümayəndələri, idarə, müəssisə və təşkilatların kollektivləri də fəallıq göstərdi, iməciliklər dövründə salınmış yaşıllıq zolaqlarına xüsusi qulluq edildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin keçirilən iməciliklərdə şəxsən iştirakı isə sakinləri daha da ruhlandırdı, bu addım insanlar üçün yurd, təbiət sevgisinin nümunəsinə çevrildi.

Artıq soyuq qış ayları qapıdadır. Naxçıvan şəhəri sarı-qızılı, yaşıl libasa bürünübdür. Şəhər gözəllik estafetini həmişəyaşıl ağaclara verib. Belə demək mümkünsə, bu ağaclar doğma diyarımızın qonaqlarıdır, qarağac, çinar, palıd bağların daimi sakinidirsə, küknarlar, şamlar bu torpaqlara uyğunlaşdırılan müsafir ağaclardır. Ancaq onlar burada heç də qəriblik hiss etmirlər, çünki daim qayğıkeş insanların şəfqəti və zəhməti ilə əhatə olunublar. Elə buna görədir ki, şəhərin hər bir prospekt və küçəsində bu ağacların yaşıl guşələrini görmək mümkündür. Bir sözlə, Naxçıvan şəhərinin yaşıllıqları təbiətin cənub-şimal vəhdətinin bariz nümunəsi, regionun ən yaşıl və abad şəhəridir.

**Səbuhi HÜSEYNOV**

## Beynəlxalq Tələbə-Gənclər Həftəsi münasibətilə idman yarışları keçirilib



***10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi münasibətilə muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında yüngül atletika üzrə keçirilən muxtar respublika birinciliyinə yekun vurulub.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi və Yüngül Atletika Federasiyasının birgə təşkil etdiyi birincilikdə 70-ə yaxın atlet mübarizə aparıb. Naxçıvan Muxtar Respublika Stadionunun qaçış zolağında keçirilən yarışın reqlamentinə əsasən oğlanlar 100, 200, 400, 800 və 1500, qızlar isə 100, 200, 400 və 800 metr məsafəni qət etməli idilər.

Yekun nəticəyə əsasən oğlanlar arasında Məhəmməd Tağıyev (Naxçıvan Dövlət Universiteti), Bəhlul Əsgərli ("Naxçıvan" Universiteti), Sərdar Tağıyev (Naxçıvan Müəllimlər İnstitutu), Cəbrayıl Yunusov (Naxçıvan Dövlət Texniki Kolleci) və Əmrah Nağıyev (Naxçıvan Dövlət Texniki Kolleci) müvafiq olaraq 100, 200, 400, 800 və 1500 metr məsafələrdə finiş xəttinə hamıdan öndə çatıblar. Qızların mübarizəsində isə Gülayə Cəfərova (100 və 400 metr, Naxçıvan Dövlət Universiteti), Aytən Rəhimova (200 metr, Naxçıvan Musiqi Kolleci) və Sevgi Məmmədli (800 metr, Naxçıvan Dövlət Texniki Kolleci) qalib adını qazanıblar.

* * *

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində isə bu münasibətlə muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin oğlan tələbələri arasında voleybol üzrə birincilik keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi və Voleybol Federasiyasının birgə təşkil etdiyi birincilik olimpiya sistemi üzrə keçirilib və 6 komanda mübarizə aparıb.

Birinciliyin həlledici görüşündə "Naxçıvan" Universiteti ilə Naxçıvan Dövlət Universitetinin komandaları üz-üzə gəlib. Daha üstün oyun sərgiləyən birincilər 2:0 hesabı ilə qalib gələrək yarışın baş mükafatını qazanıblar. Naxçıvan Tibb Kollecinin komandası isə üçüncü olub.

Qaliblər 17 noyabr 2017-ci il tarixdə "Gənclik" Mərkəzində keçiriləcək tədbirdə mükafatlandırılacaqlar.

**Ceyhun MƏMMƏDOV**

## Yüksəkixtisaslı həkim briqadaları profilaktik tibbi müayinələr aparıb

Muxtar respublika əhalisinin sağlamlığının mühafizəsi, dispanserizasiya işinin yaxşılaşdırılması məqsədilə həkim briqadaları şəhər, qəsəbə və kəndlərdə, ümumtəhsil məktəblərində kütləvi profilaktik müayinələri davam etdirirlər.

Növbəti belə müayinə Naxçıvan Muxtar Respublika Xəstəxanasının yüksəkixtisaslı həkim briqadası tərəfindən Şahbuz Rayon Mərkəzi Xəstəxanasında aparılıb. Oftalmoloq, kardioloq, nevropatoloq, endokrinoloq və laborantlardan ibarət briqada yerli tibb işçiləri ilə birlikdə 116 nəfəri profilaktik tibbi müayinələrlə əhatə edib. Aşkar olunan ilkin xəstələrə müvafiq səhiyyə müəssisələrində dərin tibbi müayinələrə cəlb edilməsi məsləhət görülüb, onlara ambulator kartlar açılıb.

Aksiyada iştirak edən Biçənək kənd sakini Fatma Mustafayeva bildirib ki, bəzən sağlamlığımıza biganə yanaşırıq. Belə məqamda həkimlər bunun qeydinə qalırlar. Mənə də yaxını görmək üçün eynək yazdılar. Sağ olsunlar.

Gülnar Hadıyeva, Zərəfşan Bağırova, Nüsrət Əhədov və başqaları da onlara göstərilən bu xidməti dövlətimizin əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi tədbirlərin tərkib hissəsi kimi dəyərləndirərək belə xeyirxah aksiyaların təşkilatçı və icraçılarına minnətdarlıqlarını bildiriblər.

Aksiya iştirakçıları arasında ürək-damar, dəri-zöhrəvi, şəkərli diabet, onkoloji, yoluxucu, ginekoloji xəstəliklər, uşaqların düzgün qidalanması, ana südünün əhəmiyyəti, qohumluq nikahının və zərərli vərdişlərin hamiləliyə əks-təsiri barədə səhiyyə maarifi işləri aparılıb.

Yüksəkixtisaslı heyət yerli həkimlərə müasir tibbi avadanlıqlardan istifadə qaydalarını da öyrədib. Laboratoriyada ümumi analizlərin olunması, infeksiyaların təyini, aparatların işləmə mexanizmi yerli həkim və tibb işçilərinə izah edilib.

* * *

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim briqadası isə Kəngərli rayonundakı Böyükdüz kəndində uşaqları kütləvi profilaktik tibbi müayinədən keçirib.

Pediatr, stomatoloq, ftiziatr, endokrinoloq və laborantlardan ibarət briqada kəndin həkim ambulatoriyasında 30 uşağa tibbi xidmət göstərib, aşkar edilmiş bəzi xəstələrin əlavə müayinə və müalicəsi üçün Mərkəzi Uşaq Xəstəxanasına gəlmələri məsləhət görülüb. 30 valideynlə səhiyyə maarifi işi aparılıb, uşaqların sağlamlığının qorunmasında səhiyyə müəssisələri ilə valideynlərin birgə fəaliyyətinin zəruriliyi qeyd edilib.

Xəstələrə pulsuz dərman və sarğı materialları verilib, peyvəndlərin təqvim üzrə aparılması və dispanserizasiya işinin təşkili, tibbi sənədləşmənin düzgün həyata keçirilməsi ilə əlaqədar məntəqə işçilərinə metodik köməklik göstərilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***



## Mini-futbol turniri

Sədərək Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Uşaq-gənclər idman məktəbi və Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə rayon ümumtəhsil müəssisələrinin komandaları arasında 17 noyabr – Naxçıvan Muxtar Respublikasında Dövlət Bayrağı Günü münasibətilə mini-futbol turniri təşkil olunub.

Olimpiya sistemi ilə keçirilən yarışda 4 komanda iştirak edib. Yekun nəticəyə əsasən Sədərək kənd 2 nömrəli tam orta məktəbin komandası final görüşündə Heydərabad qəsəbə tam orta məktəbinin komandasını məğlub edərək birinciliyin qalibi olub. Sədərək kənd 1 nömrəli tam orta məktəbin komandası isə üçüncülüklə kifayətlənib.

Qaliblərə təşkilatçılar tərəfindən diplom və kubok təqdim edilib.

### İtmişdir

Naxçıvan şəhəri, Bektaşi küçəsi, bina 1, ev 20-də yaşayan Abbasov Şəmsəddin Zakir oğlunun adına olan 8449 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Nəsirov Rəşid İbrahim oğlunun adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 933